# Qax: Rayonun tarixində rekord miqdarda dənli bitkilər istehsal olunub

***2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında əhatəli məruzə ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı Musa Şəkiliyev qeyd etdi ki, ötən il respublikamızın hər yerində olduğu kimi, Qaxda da bütün sahələrdə lazımi işlər görülüb və məqsədyönlü tədbirlər həyata keçirilib.***



Belə ki, rayon statistika idarəsi tərəfindən verilmiş məlumatlara əsasən 2016-cı ildə rayon üzrə məhsulun ümumi buraxılışı 109 milyon 886 min manat olub ki, bu da əvvəlki illə müqayisədə 20.9 faiz çoxdur. Məhsulun ümumi buraxılışının tərkibində sənaye məhsulu istehsalı 20 milyon 356 min manat, kənd təsərrüfatı məhsulu istehsalı 44 milyon 371 min manat, tikintidə 11 milyon 268 min manat , nəqliyyatda 2 milyon 247 min manat , rabitədə 979 min manat, ticarətdə 30 milyon 665 min manat olub. Əhalinin gəlirləri 133 milyon 500 min manat, əvvəlki illə müqayisədə 403 min manat çox olub.

Hesabat dövründə 547 yeni iş yeri açılıb ki, bu da əvvəlki illə müqayisədə 221 iş yeri çoxdur. Rayon üzrə orta əmək haqqı 233.2 manat olub.

M.Şəkiliyev qeyd etdi ki, yerli icra strukturlarına verilmiş tapşırıqların icrası məqsədilə hesabat ilində rayonda geniş tədbirlər planı tərtib olunmuşdu. Tədbirlər planına əsasən, rayonda bütün sahələr üzrə müvafiq işlərin həyata keçirilməsi, əsasən də kənd təsərrüfatı məhsulları istehsalının genişləndirilməsi nəzərdə tutulurdu. Həmin planın icrası nəticəsində 2016-cü ilin məhsulu üçün əkilmiş 12 min 890 hektar payızlıq taxıl, o cümlədən 8300 hektar buğda, 4590 hektar arpa sahələrindən rayonun tarixində ilk dəfə olaraq rekord miqdarda, yəni 36,4 min ton payızlıq dənlilər istehsal olunub ki, bu da əvvəlki ildəkindən 7,8 min ton çoxdur. Tələb olunan bir sıra aqrotexniki tədbirlərin həyata keçirilməsinə daha ciddi yanaşılması, eləcə də hava şəraitinin əlverişli keçməsi nəticəsində payızlıq dənlilərin məhsuldarlığı ötən illə müqayisədə 1,9 sentner artaraq 28,2 sentner təşkil etdib. Hər hektardan 29,7 sentner buğda, 25,7 sentner isə arpa məhsulu götürülmüşdür.

Qaxlılar hesabat ilində rayon üçün ənənəvi olan tütünçülük və baramaçılıq sahələrinin inkişaf etdirilməsinə də xüsusi diqqət yetiriblər. Bu məqsədlə 331 hektar sahədə tütün əkini aparılaraq 3230 ton yaşıl tütün yarpağı tədarük olunub, 3884 kiloqram isə yüksək keyfiyyətli barama istehsal olunub. Rayon rəhbəri qeyd etdi ki, yaxın gələcəkdə baramaçılığın yem bazasının gücləndirilməsi məqsədilə 1000 kvadratmetr sahədə tut toxumu səpini aparılıb, normal bitiş alınıb. Eyni zamanda, inzibati ərazi dairələrində 35 min 200 ədəd, rayon damazlıq ipəkçilik stansiyası tərəfindən isə 20 min ədəd olmaqla, cəmi 55 min 200 ədəd tut tinginin əkilməsi təmin olunub.

Hesabat dövründə yolların əsaslı təmiri və abadlıq işlərinin görülməsi ilə bağlı büdcədə nəzərdə tutulmuş vəsait hesabına Zəyəm kəndinin əsas yolunun 0,7 kilometr hissəsinə, Şotavar kəndinin isə giriş hissəsinə 1,8 kilometr uzunluğunda yeni asfalt örtüyü salınıb. Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 22 avqust 2016-cı il tarixli sərəncamı ilə Alatəmir-Marsan-Tasmalı-Zəyəm-Lələli avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsindən 2 milyon manat vəsait ayrılmışdı. Hazırda yolun tikintisinin başa çatdırılması istiqamətində müvafiq işlər aparılır.

Ötən il Kənd Təsərrüfatı Nazirliyinin Qax rayonu üzrə idarəsinin inzibati binasının və şəhərin İsmayıl Dağıstanlı küçəsindəki 180 yerlik uşaq bağçasının tikintisi başa çatdırılıb, şəhərin 28 May küçəsində 100 yerlik körpələr evi-uşaq bağçasının, Ağçay kəndində birqruplu uşaq bağçasının, Qax şəhərində, Qaşqaçay və Əmbərçay kəndlərində Qarabağ müharibəsi əlillərinə inşa olunmuş fərdi yaşayış evlərinin tikintisi başa çatdırılaraq istifadəyə verilib, Turaclı kənd körpələr evi-uşaq bağçası əsaslı təmir olunub.

Hesabat ilində rayonda turizmi inkişaf etdirmək məqsədi ilə İlisu kəndində “Şou Tubinq Park” əyləncə mərkəzi istifadəyə verilib. Bu da rayona gələn turistlərin sayının artmasına kömək edəcək. Rayonun mehmanxana və digər turizm obyektlərində 2016-cı il ərzində 26 min 304 nəfər yerli, 2696 nəfəri isə xarici turist olmaqla, ümumilikdə 29 min nəfər turist istirahət edib ki, bu da 2015-ci illə müqayisədə 4900 nəfər çoxdur.

Zaqatala Regional Qaz İstismar İdarəsinin Qax sahəsi tərəfindən il ərzində əhali və sənaye abonentləri fasiləsiz olaraq təbii qazla təmin edilib, qazın verilməsində normal təzyiq saxlanılıb. Rayon elektrik şəbəkəsi də sakinlərin elektrik enerjisi ilə təminatını günün tələbləri səviyyəsinə çatdırmaq üçün lazım olan bütün tədbirləri reallaşdırır. Bu məqsədlə il ərzində 11 ədəd sıradan çıxmış transformator təmir olunub, 19 ədəd yeni ayrıcı, 8 ədəd yeni transformator yarımstansiyası və 927 ədəd elektrik sayğacı quraşdırılıb.

Bütün bunlar və ümumiyyətlə, görülmüş və görüləcək çoxsaylı işlər barədə geniş söz açılan yığıncaqda Milli Məclisin deputatı Azər Kərimli və Prezident Administrasiyasının məsul işçisi Rüfət Əliyev çıxış edərək, 2016-cı ildə respublikamızda sosial-iqtisadi sahədə görülən işlərdən danışıb, qarşıda duran vəzifələrdən bəhs ediblər.

Sonda yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.